

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 132 (24.269)

*26 iyul 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## “PAŞA Həyat Sığorta” və “PAŞA Sığorta” Naxçıvanda fəaliyyətə başlayıb



Naxçıvanda “PAŞA Həyat Sığorta” və “PAŞA Sığorta” Açıq Səhmdar cəmiyyətlərinin rəsmi nümayəndəlikləri istifadəyə verilib. Açılış mərasimində rəsmi şəxslər də iştirak edib.

“PAŞA Sığorta” ASC idarə heyətinin sədri Ülviyyə Cabbarova və “PAŞA Həyat Sığorta” ASC idarə heyətinin sədri Niyaz İsmayılov çıxış edərək Naxçıvan şəhərində nümayəndəliklərin fəaliyyətə başlamasından məmnunluqlarını ifadə ediblər.

Qeyd edilib ki, “PAŞA Sığorta” artıq Naxçıvan əhalisinə peşəkar xidmətlərini təqdim etməyə hazırdır. Qısa zamanda xidmət sahəsini genişləndirərək Qarabağımızın tacı olan Şuşa şəhərində də ofisin açılışı nəzərdə tutulur. Azərbaycanın bütün iqtisadi rayonlarında əhaliyə keyfiyyətli sığorta xidməti təqdim etmək şirkətin qarşıya qoyduğu əsas hədəflərdəndir.

Bildirilib ki, daim müştərilərə ən yaxşı xidmət və rəqəmsal həllər təqdim etmək üzərində çalışan “PAŞA Həyat” 2021-ci ildən etibarən yeni Rəqəmsal Transformasiya strategiyasını tətbiq edir. Belə ki, şirkət tərəfindən həyat sığortası sahəsində əhaliyə rahat və keyfiyyətli məhsullar təqdim edilir. “PAŞA Həyat” biznes fəaliyyətindən başqa korporativ sosial məsuliyyət layihələrinə də önəm verir. Bunlar arasında biznes maarifləndirmə, təhsilə dəstək və digər sosial fəaliyyətlər üçün faydalı məhsullar mövcuddur.

11 vacib prioritet istiqamət üzrə müəyyənləşən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”ndan söz açan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli bildirib ki, proqrama əsasən əhalinin və sahibkarların sığorta savadlılığının artırılması və sığorta xidmətlərinə əlçatanlığının inkişafı məqsədilə müvafiq tədbirlərin görülməsi, sahibkarlığın inkişafı, innovativ texnologiyaların tətbiqinin stimullaşdırılması üçün güzəştli kreditlərin verilməsi, təşviqat işlərinin aparılması və digər maliyyə dəstəyi tədbirləri həyata keçiriləcəkdir. Bütün bunlar əhalinin işlə təminatına, ciddi layihələrin reallaşmasına imkan verəcək, dövlət bu sahəyə daim dəstək göstərəcək.

Açılış tədbirində Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev, Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və digərləri çıxış edərək son zamanlarda sığorta şirkətlərinin Naxçıvana olan marağından danışıb, bunu muxtar respublikada olan böyük potensialla əlaqələndiriblər.

Sonra “PAŞA Həyat Sığorta” və “PAŞA Sığorta” ASC-lərin Naxçıvan nümayəndəliklərinin açılışı olub.

Açılış tədbirləri çərçivəsində sığorta şirkətlərinin nümayəndə heyətləri Ulu Öndərin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstələri qoyub, Ümummilli Liderin əziz xatirəsini ehtiramla yad edib, Heydər Əliyev Muzeyinin dəyərli eksponatları ilə tanış olublar.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində yeni qurumlar yaradılıb

*Son zamanlarda muxtar respublika səhiyyəsində aparılan islahatlar əhalinin xüsusi məmnunluqla qarşıladığı yeniliklərlə diqqət çəkir. Düşünülmüş və əhalinin sağlamlığı naminə ən yüksək tibbi xidmətin təmini məqsədilə seçilərək təyin edilmiş tibbi kadrlardan muxtar respublika əhalisinin əziz ehtiyacı olan tibb müəssisələrinin yaradılmasına kimi hər bir qərar sağlamlığın xəstəliklərin və ölüm sayının azaldılmasına, əhali üçün tibbi təminatın əlçatanlığına hesablanmış qərarlardır.*

Bu sahədə görülən işlərin və həyata keçirilən əsaslı islahatların davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin “Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Fərmanına əsasən muxtar respublikada səhiyyə xidmətləri sahəsində keyfiyyətin artırılması, idarəetmənin təkmilləşdirilməsi, operativliyin və əlçatanlığın təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində yeni tibb müəssisələri – Naxçıvan Muxtar Respublikasının QİÇS-lə Mübarizə Mərkəzi, Naxçıvan Muxtar Respublikası İctimai Səhiyyə Xidməti, Treninq və Simulyasiya Mərkəzi, Tibbi Xidmətin Keyfiyyətinə Nəzarət və Akkreditasiya Mərkəzi, Naxçıvan Muxtar Respublikası Hemodializ Mərkəzi, Naxçıvan Muxtar Respublikası Qan Bankı və Qanköçürmə Mərkəzi, Şərur Regional Tibb Mərkəzi, Culfa Regional Tibb Mərkəzi, publik hüquqi şəxs statuslu ailə sağlamlıq mərkəzləri, Naxçıvan Sağlamlıq Mərkəzi publik hüquqi şəxsləri yaradılmış, “Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzi” publik hüquqi şəxsi ləğv edilərək “Naxçıvan Muxtar Respublika Xəstəxanası” publik hüquqi şəxsə birləşdirilmişdir.

QİÇS-lə mübarizə dövlətin prioritet məsələlərindən biridir. Daim İİV-ə yoluxmuş şəxslərin cəmiyyətdə üzləşdiyi çətinliklərin həlli istiqamətində aparılan işlər təkmilləşdirilmiş, bu məqsədlə muxtar respublikada bu sahədə yeniliklər həyata keçirilmişdir. Belə ki, 2015-ci ilədək müstəqil, 2015-ci ildən Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzində şöbə kimi fəaliyyət göstərən Naxçıvanda QİÇS-lə mübarizədə QİÇS-lə testləşmənin aparılmasının vacibliyini, müalicənin əlçatanlığını və fasiləsiz təmin edilməsini nəzərə alaraq İİV-ə yoluxma hallarının azalması istiqamətində işlər aparmaq və QİÇS-ə yoluxmuş şəxslərin müalicəsini düzgün həyata keçirmək, QİÇS-lə yaşayan insanlara profilaktika, müalicə, qulluq və dəstəyin göstərilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının QİÇS-lə Mübarizə Mərkəzi yaradılmışdır.

Səhiyyədə bir çox istiqamətlər üzrə aparılan islahatların səmərəliliyinin artırılması üçün profilaktiki tədbirlərin həyata keçirilməsi, yoluxucu xəstəliklərin qarşısının alınması, gənclərin fiziki sağlamlığının təşviq edilməsi, ətraf mühitin risklərindən qorunmasının artırılmasına diqqət göstərilmiş, səhiyyə sistemində islahatların aparılmasına irəliyə doğru atılmış bir addım kimi Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin və onun rayon şöbələrinin əsasında yeni yaradılan Naxçıvan Muxtar Respublikası İctimai Səhiyyə Xidmətində xəstəliklərin yaranma səbəbləri və mexanizmlərini, yayılmasını öyrənməklə və profilaktik tədbirlər vasitəsilə insanların sağlamlığının qorunmasını, əmək qabiliyyətinin, həyat keyfiyyətinin yüksəldilməsini və ömrünün uzadılmasını təmin etməklə yanaşı, tibb müəssisələri üçün standartların hazırlanması, pasiyentlərin təhlükəsizliyi üzrə sosial gigiyenanın əhəmiyyətinin insanlara düzgün çatdırılması məqsədilə müxtəlif istiqamətlərdə xidmətlər göstəriləcək.

Həkimlərin bilik və bacarıqlarının təkmilləşdirilməsi, muxtar respublika tibb işçilərinin təkmilləşdirmə kurslarında iştirakını təmin etmək, xarici ölkələrin səhiyyə mütəxəssislərinin zəngin təcrübəsindən yararlanaraq beynəlxalq standartlara uyğun olan təlim proqramlarından istifadə etməklə tibb işçilərini sürətli təcrübə mübadilələrinə cəlb etmək üçün “Treninq və Simulyasiya Mərkəzi” publik hüquqi şəxs yaradılmışdır. Mərkəzdə təhsilin müasir standartlarının istifadəsinə və xarici təcrübəyə əsaslanan yüksək dərəcədə müasir simulyasiya təlimi tətbiq edilməklə tibb işçilərinin bilik və bacarıqlarının artırılması ilə bərabər yerli təlimçilərin də yetişdirilməsi təmin olunacaqdır. Belə ki, mərkəzdə bütün ixtisaslar üzrə tibb mütəxəssislərinin hazırlanması, orta və kiçik tibb personalının ixtisas bacarıqlarına yiyələnməsi, fərdi praktiki vərdişlərin öyrədilməsi və təkmilləşdirilməsi, eyni zamanda yeni bacarıqların əldə edilməsi, mərkəzin endoskopiya, USM, ginekologiya, reanimasiya, xəstəyə qulluq və təcili yardım otaqlarında robot-simulyatorlar üzərində manipulyasiyaların aparılması tətbiq ediləcəkdir ki, bu da muxtar respublikada tələbələrin, rezidentlər və həkimlərin praktiki bacarıqlarının artırılması və simulyasiya təlimindən istifadə edərək müxtəlif tibb peşələri üzrə mütəxəssislərin formalaşmasına şərait yaradacaqdır.

Naxçıvan Muxtar Respublikasında tibbi xidmətlərin keyfiyyətinin yoxlanılmaması, tibb işçilərinin və tibb müəssisələrinin akkreditasiya olunmaması səhiyyə sistemində strukturun təkmilləşdirilməməsinə, fəaliyyətin və idarəetmənin optimallaşdırılmamasına, dəqiq və çevik qərarların qəbul edilməməsinə gətirib çıxarmışdır. Muxtar respublikada tibbi yardımın keyfiyyət göstəricilərini və bu göstəricilərin qiymətləndirilməsi metodlarını təkmilləşdirmək və işin səmərəliliyini təhlil etmək, peşəkar kadrlar formalaşdırmaq məqsədilə “Tibbi Xidmətin Keyfiyyətinə Nəzarət və Akkreditasiya Mərkəzi” publik hüquqi şəxs yaradılmışdır. Mərkəzin yaradılması nəticəsində tibb işçiləri və tibb müəssisələri akkreditasiya olunmaqla müxtəlif səviyyədə səhiyyə təşkilatlarınının xidmət keyfiyyətinin standartlara uyğun hala gətirilməsi və daimi olaraq təkmilləşməsi tibbi xidmətlərin keyfiyyətinin yoxlanılmasına, tibb işçilərinin, tibbi cihaz və avadanlıqların akkreditasiyasına və klinik protokolların hazırlanması funksiyalarının təmin olunmasına şərait yaradacaqdır.

Hazırda muxtar respublikada dializdən asılı olan, böyrək çatışmazlığından əziyyət çəkən 129 xəstə var. Həmin xəstələrin müalicə və müayinələri, onların tibbi təminatları da daim diqqətdə saxlanılmış, bu məqsədlə “Naxçıvan Muxtar Respublikası Hemodializ Mərkəzi” publik hüquqi şəxs yaradılmışdır. Mərkəzin yaradılması ilə hemodializ xidmətinin yenidən təşkil edilməsi, adekvat səviyyəli personalla komplektləşdirilməsi, dializ parametrlərinin düzgün təyin olunması, idarəetmənin təkmilləşdirilməsi, lazımi maddi-texniki bazanın yaradılması və mövcud sahədə əziyyət çəkən vətəndaşlarımızın keyfiyyətli tibbi xidmətlərdən faydalanmasına şərait yaradılacaqdır.

Əhali üçün lazım olan qan ehtiyatının vaxtında əldə edilərək ölüm hallarının, ağırlaşmaların qarşısının alınması, insanların keyfiyyətli qan və qan komponentləri ilə təmin olunması və əhaliyə göstərilən transfuzioloji yardımın təkmilləşdirilməsi məqsədilə “Naxçıvan Muxtar Respublika Xəstəxanası” publik hüquqi şəxsin Qan Bankının, “Naxçıvan Diaqnostika Müalicə Mərkəzi” publik hüquqi şəxsin və “Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzi” publik hüquqi şəxsin tərkibində olan qan kabinələrinin bazasında “Qan Bankı və Qanköçürmə Mərkəzi” publik hüquqi şəxsi yaradılmışdır. Göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması, idarəetmənin təkmilləşdirilməsi, lazımi maddi-texniki bazanın yaradılması üçün Qan bankının yenidən təşkili əhaliyə göstərilən transfuzioloji xidmətlərin və qan tədarükünün müasir standartlara uyğunlaşdırılması və vətəndaşlarımızın keyfiyyətli tibbi xidmətlərdən faydalanmasına öz töhfəsini verəcəkdir.

Yaradılan yeni tibb müəssisələri sırasında “Şərur Regional Tibb Mərkəzi” publik hüquqi şəxsin və “Culfa Regional Tibb Mərkəzi” publik hüquqi şəxsin yaradılması aparılan səhiyyə islahatları sırasında xüsusi yer tutur. Belə ki, yerlərdə vətəndaşların müraciətlərinə keyfiyyətli baxılması, vətəndaşlara tibbi xidmət, eyni zamanda da digər yerli məsələlərin həllinə müsbət təsir etmək məqsədilə regional tibb mərkəzlərinin yaradılması ilə muxtar respublika əhalisinə yüksək səviyyədə tibbi xidmətin göstərilməsi təmin ediləcək, bu sahədə təkmilləşdirmələrin aparılması və gələcək inkişafı ilə bağlı perspektivlərin, məsələlərin öz həllini tapmasına şərait yaradacaqdır. Mərkəzlərin yaradılması ilə səhiyyədə sistemli və keyfiyyətli səhiyyə mexanizminə nail olunacaq ki, bununla da əhalinin yerlərdə yüksək səviyyədə tibbi xidmət almasına kömək edəcək.

Eyni zamanda muxtar respublikada tibbi xidmətlərin səviyyəsinin artırılması, vətəndaşların tibbi xidmətlərdən istifadəsində əlçatanlığın təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan kənd həkim ambulatoriyaları və kənd sahə xəstəxanalarının bazasında publik hüquqi şəxs statuslu ailə sağlamlıq mərkəzləri, “Naxçıvan Diaqnostika Müalicə Mərkəzi” publik hüquqi şəxsin əsasında “Naxçıvan Sağlamlıq Mərkəzi” publik hüquqi şəxs yaradılmışdır.

Ürək sağlamlığını qorumaq, ürək xəstəliklərini aşkar və müalicə etmək, ən son texnologiyalar ilə təchiz olunaraq, hərtərəfli diaqnostika və müalicə üsulları ilə xidmət göstərmək məqsədilə “Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzi” publik hüquqi şəxs ləğv edilərək “Naxçıvan Muxtar Respublika Xəstəxanası” publik hüquqi şəxsə birləşdirilmişdir. Kardiologiya Mərkəzinin fəaliyyəti Naxçıvan Muxtar Respublika Xəstəxanasında davam etdirməkdə məqsəd Naxçıvan Muxtar Respublika Xəstəxanasına üz tutan təcili və təxirəsalınmaz ürək xəstələrinə daha operativ və zamanında tibbi müdaxilə etmək, yeni doğulmuş uşaqlardan yaşlı nəslin nümayəndələrinə qədər hər yaşda olan insanlara hər növ ürək xəstəliklərinin diaqnostika və müalicəsinin aparılmasına şərait yaratmaqdır.

Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müvafiq sərəncamlarına əsasən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzi Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyinə verilmiş, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan “Darıdağ Arsenli Su Müalicəxanası” publik hüquqi şəxs statusu ləğv edilərək Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyindən çıxarılmışdır.

Muxtar respublika səhiyyəsində bir çox istiqamətlər üzrə islahatlar aparılır, genişmiqyaslı işlər görülür. Səhiyyə sahəsində dövlətlə vətəndaş arasında maraqlar balansının, hər bir pasiyentə münasibətdə müasir yanaşmanın təmin edilməsi, obyektivlik, şəffaflıq və hesabatlılıq kimi prinsiplərə əsaslanan fəaliyyətə nail olunması, tibbi xidmətlər sahəsində bir sıra proseslərin sadələşdirilməsi, çevikliyin təmin edilməsi, şikayətlərə operativ baxılması, müvafiq istiqamətdə yönləndirilməsi kimi xidmətləri vətəndaşlar üçün əlçatan edən addımların atılması müvafiq sahənin tənzimlənməsinə yönəlik tədbirlərin həyata keçirilməsində mühüm rola malikdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Azərbaycan xalqı çox mühüm və əlamətdar tarix yaşadığımız "Heydər Əliyev İli"ndə 15 İyun – Milli Qurtuluş Gününü hərbi-siyasi zəfərlərlə, əhəmiyyətli sosial-iqtisadi tərəqqi göstəriciləri ilə qeyd etdi. Müstəqil Azərbaycan dövlətçiliyinin xilası, xalqın nicati naminə Milli Qurtuluşa gedən yolun əsasının qoyulduğu tarixi dövr Prezident cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 2022-ci il 29 sentyabr tarixli Sərəncamında belə şərh olunur: "Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərlik illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir". Naxçıvan Muxtar Respublikası isə Azərbaycanın mühüm iqtisadi-strateji regionu kimi ölkə başçımızın daim diqqət mərkəzində olmaqla bu gün özünün yeni inkişaf mərhələsini yaşayır. Bunu iyun ayında keçirilən müxtəlif tədbirlərin ictimai-siyasi təhlili bir daha aydın göstərir.*

*İcmal*

# Naxçıvan Ümummilli Liderin Milli Qurtuluş fəlsəfəsinin müasir bəhrələrini yaşayır



### *Sağlam gələcək naminə*

Ölkəmizdə uşaq siyasətinin hüquqi əsaslarının formalaşdırılması, zəngin qanunvericilik bazasının yaradılması bilavasitə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. ***"Biz uşaqlarımızı yaxşı tərbiyə etməli, yaxşı şəraitdə yaşatmalı, onları gələcək üçün hazırlamalıyıq"***, – deyən Ulu Öndərin bu siyasətini Prezident cənab İlham Əliyevin uğurla davam etdirməsinin nəticəsidir ki, Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında uşaqlar hərtərəfli qayğı əhatəsindədirlər. İyunun 1-də – Uşaqları Beynəlxalq Müdafiə Günündə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli şəhid, qazi övladları, sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum olmuş, təkvalideynli uşaqlar, eləcə də fəal kursant və şagirdlərlə görüşüb. Əvvəlcə uşaqlar Ali Məclisin foyesində Ümummilli Lider Heydər Əliyevin büstü və iclas salonu ilə əyani surətdə tanış olublar.

***"Uşaq siyasəti Azərbaycan Respublikasının dövlət siyasətidir. Bizim işimiz uşaqların sağlam böyüməsi, onların keyfiyyətli təhsil almaları və sosial qayğı ilə əhatə olunmasıdır"***, – deyən Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi uşaqların suallarını cavablandırıb, öz üzərlərində daim işləməyi, sərbəstfikirli olmağı, daha çox oxumağı, çalışmağı, Vətənə, dövlətə layiqli şəkildə yetişməyi tövsiyə edib.

Səlahiyyətli nümayəndə muxtar respublikada mövcud problemlərin öyrənilməsi və həlli istiqamətində görülən işlərdən danışaraq məktəblilərə tövsiyələrini verib: ***"Ümumiyyətlə, köhnə peşələrdə yenilikləri tapmaq məhz gəncliyin funksiyasıdır. Sizin zehniniz, bu gün əlinizdə olan imkanlar 20 il bundan öncəki gəncliklə müqayisədə ağlagəlməz səviyyədədir. Bu gün elektron tablet vasitəsilə dünyanın hər yerindən bilgilərə sahib ola, statistik rəqəmlər əldə edə bilərsiniz. Lakin 20 il bundan öncəki uşaqlar bundan məhrum idi. Texnologiya, elm sürətlə inkişaf edir və bütün bunlar sizin faydalanmağınız üçündür. Ötən ildən etibarən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xaricdə təhsillə bağlı Dövlət Proqramının həyata keçirilməsi üçün xüsusi sənəd imzalayıb. Azərbaycan gəncləri ölkəmizdən kənardakı təhsil müəssisələrində dövlət hesabına təhsil ala bilirlər. Bu kimi imkanlardan istifadə etməlisiniz".***

Naxçıvanın gələcəyinin uşaqların öz işlərində nə qədər ciddi, məsuliyyətli addımlamağından asılı olduğunu vurğulayan səlahiyyətli nümayəndə deyib: ***"Naxçıvan Muxtar Respublikası da Azərbaycanın ən strateji ərazisidir. Azərbaycanın Avropaya çıxışı Naxçıvan üzərindəndir. Bu da Naxçıvanı, xüsusilə strateji bir vəziyyətə gətirib çıxarır. Ölkə Prezidentinin apardığı siyasət təkcə Naxçıvanı yox, eləcə də Azərbaycanı Avropanın strateji tərəfdaşı və Avropanın yaxın dostu, həmçinin dünyaya sülh tərəfdarı kimi tanıdıb. Naxçıvan Muxtar Respublikasının bu siyasətdə yeri əvəzolunmazdır".***

Sonra uşaqlar vaxtilə Ulu Öndər Heydər Əliyevin işlədiyi, ölkəmizin bugünkü inkişafına hesablanmış mühüm qərarlar qəbul etdiyi iş otağında olub, burada aralarından Aylin Oruczadəni səlahiyyətli nümayəndə seçiblər. O, təhsil sahəsində verdiyi qərarların icrası üçün təyin etdiyi nazirə tapşırıqlarını çatdırıb, Naxçıvan televiziyasına müsahibə verib. Sonda uşaqlara hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.

Ümummilli Liderimiz Heydər Əliyev sağlam gənc nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi kimi daim diqqət mərkəzində saxlamış, onların dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələ elan etmişdir. Ölkəmizin hərtərəfli inkişafına xidmət edən gənclər siyasəti bu gün də uğurla davam etdirilir. İyunun 13-də Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli muxtar respublikanın bir qrup fəal gənci ilə görüşüb.

Səlahiyyətli nümayəndə çıxış edərək deyib ki, 2022-ci ilin dekabr ayından Azərbaycan Respublikası Prezidentinin müvafiq qərarlarından sonra Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəlik institutu formalaşıb. Bu, Naxçıvanın, ümumiyyətlə, Azərbaycan Respublikasının həyatında yenilikdir. Yeni institutlar xalqa daha yaxın olmaq, xalqın firavanlığının təminatı kimi ali məqsədlərə xidmət edir. Hər bir görüş bizim üçün bir platformadır.

Fuad Nəcəfli Azərbaycan Respublikasında aparılan sosial-iqtisadi islahatlarla bağlı gənclərə məlumat verərək bildirib ki, Ümummilli Liderimiz Heydər Əliyevin həyat fəlsəfəsi, Onun fəaliyyəti Azərbaycan xalqının milli sərvətidir. Bu gün dahi şəxsiyyətin siyasi xətti yaşayır. Bu siyasi xətt möhkəm təməllər üzərində formalaşdırılıb. Ulu Öndərin siyasi xəttinin nəticəsi olaraq müstəqil Azərbaycan qüdrətli dövlətə çevrilib.

Səlahiyyətli nümayəndə Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsindən və qazanılmış Tarixi Qələbədən bəhs edib. Qeyd olunub ki, bu Qələbədən sonra Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası üçün böyük perspektivlər açılıb. Azərbaycan 30 ilə yaxın apardığı uğurlu xarici siyasətin bəhrələrini görür. Bu gün əsas məsələ kommunikasiyaların, nəqliyyat dəhlizlərinin açılması, xalqın daha da firavan yaşamasıdır. Müstəqilliyimizin ilk illərində "Əsrin müqaviləsi" imzalananda Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi ilə bağlı məsələlər müzakirə olunarkən həmişə bu mövqedən çıxış edilib ki, Azərbaycan əməkdaşlıqlar üçün platformalar yaradır ki, təkcə Azərbaycan xalqı deyil, eyni zamanda bütün maraqlı və pozitiv düşüncələri olan dövlətlər bu beynəlxalq platformadan istifadə etsinlər. Qeyd olunub ki, bu gün Heydər Əliyev Fondunun apardığı siyasət var. Ölkəmizdə və ondan kənarda ümumbəşəri abidələrin qorunması ilə bağlı işlər aparılır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə bu məsələlər tam sürətlə gedir. Azərbaycan, ümumilikdə, özünü bütün dünyəvi dəyərlərin mirasçısı kimi göstərir. Cəmiyyətimizdə hər prinsipial mövqeyi olan gənc, fərd bu məsələni diqqətdə saxlamalı, gələcək nəsillərə ötürməlidir.

Səlahiyyətli nümayəndə muxtar respublikada bu müddət ərzində nümayəndəlik institutu tərəfindən görülən işlər və qarşıda duran hədəflərdən geniş danışıb, bildirib ki, muxtar respublikanın inkişaf etdirilməsində gənclərin potensialından istifadə olunmalıdır. Buna görə də gənclərlə iş yenidən qurulur.

Sonra gənclər onları düşündürən müxtəlif məsələlər ətrafında çıxış edib, sual və təkliflərini çatdırıblar. Səlahiyyətli nümayəndə sualları ətraflı cavablandırıb.

Müstəqil dövlət quruculuğu istiqamətində həyata keçirilən ordu quruculuğu tədbirləri sırasında Ümummilli Liderimizin Sərəncamı ilə 1998-ci ildə yaradılan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının yaradılması xüsusi yer tutur. Ötən dövrdə lisey Azərbaycan Ordusunun komandan-zabit heyətinin formalaşdırılması işinə öz töhfəsini vermişdir. İyunun 24-də Heydər Əliyev adına Hərbi Liseyin 23-cü buraxılışı münasibətilə tədbir keçirilib.

Səlahiyyətli nümayəndə bu münasibətlə kursantları təbrik edərək vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycanda milli ordu quruculuğunun əsasını qoyub, siyasi və dövlətçilik fəaliyyətinin bütün dövrlərində peşəkar hərbçi kadrların hazırlanmasına xüsusi diqqət yetirib.

***"Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin yolunu uğurla davam etdirərək ordumuzun döyüş qabiliyyətinin artırılması və peşəkar komandan-zabit heyətinin formalaşdırılması sahəsində ardıcıl tədbirlər görür"***, – deyən Fuad Nəcəfli Vətən müharibəsində qazanılan zəfəri dövlət-xalq-ordu birliyinin məntiqi nəticəsi kimi dəyərləndirib. Qeyd edib ki, Vətən müharibəsində Naxçıvan Hərbi Liseyinin də məzunları böyük qəhrəmanlıq və şücaət göstərib, bacarıqlı komandirlər kimi ən çətin döyüş tapşırıqlarını yerinə yetirib, Azərbaycanın zəfər salnaməsinə öz adlarını qızıl hərflərlə yazdırıb, şəhid, qazi olublar. Vurğulanıb ki, Naxçıvandan Şuşayadək zəfər yolu keçən hərbçilərimizin, eləcə də bütün ordu birliklərimizin istifadə etdiyi peşəkar döyüş taktikası dünya hərb tarixində yenilik kimi bu gün qabaqcıl ali hərbi məktəblərdə öyrənilir. Səlahiyyətli nümayəndə məzunları təbrik edib, onlara ali hərbi məktəblərdəki tədris illərində uğurlar arzulayıb. Çıxışlardan sonra kursantlara attestat və hədiyyələr təqdim edilib. Liseyin müəllimləri və məzun valideynləri ilə görüşən Fuad Nəcəfli hərbi liseyin buraxılışı münasibətilə təbriklərini çatdırıb, onlara uğurlar arzulayıb. Sonra Ümummilli Lider Heydər Əliyevin hərbi liseydəki büstü önündə kursantlarla xatirə şəkli çəkdirilib, liseydəki muzeyə və tədris şəraitinə baxış olub.

Dünya təhsil sistemində STEAM metodları mütəxəssis hazırlığının mühüm istiqaməti kimi uğurla tətbiq olunur. Məktəblərdə tədrisin müasir tələblər əsasında qurulması, o cümlədən STEAM təhsil metodunun həyata keçirilməsi istiqamətində Naxçıvan Muxtar Respublikasında da artıq kifayət qədər təcrübə və maddi-texniki baza formalaşıb. İyunun 14-də Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər edib. Səfər çərçivəsində qonaqlar Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə keçirilən Məzun günündə iştirak ediblər. Məzun günündə elm və təhsil naziri Emin Əmrullayev və Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək məzunları təbrik edib, onlarla xatirə fotosu çəkdiriblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, elm və təhsil naziri Emin Əmrullayev, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov və qonaqların iştirakı ilə Naxçıvan şəhərində STEAM Təlim-Tədris Mərkəzinin açılışı olub. Bildirilib ki, STEAM Təlim-Tədris Mərkəzi Heydər Əliyev Fondunun dəstəyi ilə ölkəmizdə həyata keçirilən "STEAM Azərbaycan" layihəsinin əsasında yaradılıb. 236 yerlik mərkəzdə STEAM, robototexnika, CNC-3D texnologiyası, qrafiki dizayn, elektronik proqramlama-mühəndislik, dron uçuş idarəçiliyi və kodlaşdırılması, proqramlaşdırma dərnəkləri fəaliyyət göstərəcək. Mərkəzlə tanışlıq zamanı STEAM Azərbaycan Festivalından bəhs edən nazir Emin Əmrullayev Naxçıvan məktəblilərinin festivalda fəal iştirak etdiyini vurğulayıb.

Sonra Naxçıvan Dövlət Universitetində İncəsənət fakültəsinin müəllim və tələbələrinin 15 İyun – Milli Qurtuluş Gününə həsr edilən rəsm əsərlərindən ibarət sərgiyə baxış olub. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Məzun günündə iştirak edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev Naxçıvan Dövlət Universitetinin böyük perspektivi olduğunu vurğulayıb, gələcək həkimlərimizə müvəffəqiyyətlər arzulayıblar. Məzun günü bədii hissə ilə davam edib. Sonra Tibb fakültəsinin məzunları and içiblər. Məzunlara rəmzi keçici diplomlar təqdim olunub.

### *Naxçıvan sosial-iqtisadi inkişafın yeni mərhələsində*

Azərbaycan enerji sahəsində böyük dövlətlərin, xüsusilə də Avropanın etibarlı və dayanıqlı tərəfdaşına çevrilib. Bu proses məhz Ulu Öndər tərəfindən 1994-cü ildən həyata keçirilən və böyük bir layihə olan "Əsrin müqaviləsi" ilə başlayıb və uğurla davam etdirilir. Coğrafi mövqeyi və əlverişli iqlim şəraiti muxtar respublikada alternativ enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. Təsadüfi deyil ki, Naxçıvan alternativ enerji üzrə regionda lider hesab olunur. Yeni stansiyaların tikintisi ilə birlikdə növbəti addım Naxçıvanda "yaşıl enerji"nin toplanması olacaq. Sosial-iqtisadi inkişaf strategiyasının başlıca amili kimi ölkəmizdə uğurla həyata keçirilən enerji siyasətinin əsas prioritetlərindən biri Naxçıvanı qısa zamanda "yaşıl enerji" zonasına çevrilməsidir.

İyunun 2-də Şərur rayonunda gücü 3 meqavat olan yeni Günəş Elektrik Stansiyası istifadəyə verilib. Şərur Günəş Elektrik Stansiyasının layihə gücünün daha 3 meqavat artırılaraq 11 meqavata çatdırılması üçün 10 may 2022-ci il tarixdə İsveçrənin "Pure Energy Development" SARL şirkəti ilə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti arasında müqavilə imzalanıb. Stansiyada hər birinin gücü 330 vatt olan 9108 "PERC" tipli müasir "şüşə-şüşə" formalı günəş panelləri, hər birinin gücü 50 kilovat olan 60 invertor, müasir tip kommutasiya aparatları və digər elektrik avadanlıqları ilə təmin olunmuş 3 ədəd 35/0,4 kilovoltluq 1250 kilovat gücündə transformator yarımstansiyası quraşdırılıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirdə iştirak edib, stansiyanın iş prinsipi ilə tanışlıq zamanı günəş elektrik stansiyalarının qurulması ilə bərabər, enerji saxlanmasının vacibliyini xüsusilə vurğulayıb.

*Ardı 3-cü səhifədə*

Stansiyaya baxış zamanı qeyd olunub ki, stansiyanın layihə gücü 11 meqavata çatdırıldığı üçün il ərzində 16,5 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq ki, bu da Şərur rayonunun elektrik enerjisinə olan tələbatının 21 faizini təşkil edəcək. Bununla da Naxçıvan Muxtar Respublikasında günəş elektrik stansiyalarının gücü 39 meqavata, illik istehsal gücü isə 58,5 milyon kilovat-saata çatdırılacaq.

Stansiya ilə tanışlıqdan sonra Dövlət Energetika Xidmətinin əməkdaşları ilə görüşən səlahiyyətli nümayəndə deyib ki, Naxçıvanda Azərbaycanın digər bölgələri ilə müqayisədə günəş radiasiyasının faizi olduqca yüksəkdir. O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvanı, ümumilikdə, "yaşıl enerji" dəhlizinə çevirməyi qarşısına məqsəd qoyduğunu bildirib, bunu üzərimizə strateji vəzifə kimi qoyub. Bu istiqamətdə işlər bundan sonra da uğurla aparılacaq. Qeyd olunub ki, günəş, külək, hidro enerjiləri ilə bağlı layihələr muxtar respublikada sürətlə inkişaf etdiriləcək. Muxtar respublikada alternativ enerji sahəsində ciddi investisiyalar qoymaq üçün mühüm şirkətlər öz niyyətlərini açıq şəkildə etiraf ediblər. 400 meqavatlıq və daha sonra 500 meqavatlıq 2 enerji santralının qurulmasından, 400 meqavatlıq böyük bir layihənin icraçısından söhbət gedir. Fuad Nəcəfli bu sahədə görülən işlərlə bağlı xidmətin əməkdaşlarını təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

3 iyun 2023-cü il tarixdə "Bakı Enerji Həftəsi-2023" çərçivəsində Naxçıvan şəhərində "Naxçıvan və Şərqi Zəngəzurun "yaşıl enerji" potensialı" mövzusunda xüsusi sessiya keçirilib.

"Heydər Əliyev İli" çərçivəsində Azərbaycan Respublikasının dövlət qurumlarının, Naxçıvan Muxtar Respublikasının aidiyyəti strukturlarının, Azərbaycan Respublikasında akkreditə olunmuş diplomatik nümayəndəliklərin, Bakı Enerji Forumuna qatılan xarici şirkətlərin nümayəndələrinin iştirakı ilə təşkil olunan sessiyada açılış nitqi ilə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli müstəqilliyimizin ilk illərində ölkəmizin üzləşdiyi ağır vəziyyətdən bəhs edərək məhz Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanın bu ağır sınaqdan şərəflə çıxdığını vurğulayıb. O bu xüsusda Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi enerji strategiyasının, "Əsrin müqaviləsi"nin imzalanmasının ölkəmizin hərtərəfli inkişafında müstəsna rol oynadığını diqqətə çatdırıb.

Panel müzakirələrində çıxış edən Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov Naxçıvanda "yaşıl enerji" zonasının inkişafı üçün konsepsiyanın hazırlandığını və əlverişli günəş radiasiyasına malik Naxçıvanın bu məqsədin həyata keçirilməsi üçün ideal ərazi olduğunu vurğulayıb. Muxtar respublikanın elektrik enerjisi tələbatının üçdəbirinin bərpa olunan enerji hesabına ödəndiyini qeyd edən Pərviz Şahbazov Naxçıvanda 1500 MVt gücündə "yaşıl enerji" layihələrinin reallaşdırılmasının hədəfləndiyini bildirib. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf, bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz, "TotalEnergies" şirkətinin Azərbaycan üzrə icraçı direktoru Regis Agut, "China Energy International Group Co.Ltd" şirkətinin baş vitse-prezidenti Xiaodan Lin çıxışlarında Naxçıvan və Şərqi Zəngəzur regionları da daxil olmaqla Azərbaycanın zəngin bərpa olunan enerji potensialına malik olduğunu bildirib, Azərbaycanla potensial günəş və külək enerjisi layihələri üzrə tərəfdaşlıq etməyə hazır olduqlarını ifadə ediblər.

Tədbir çərçivəsində SOCAR ilə "China Energy International Group Co.Ltd" şirkəti arasında əməkdaşlığa dair Saziş imzalanıb. Saziş Azərbaycan Respublikası ərazisində bərpa olunan enerji layihələrinin inkişafını, tərəflər arasında təcrübə mübadilələrinin təşkilini, texniki və maliyyə cəhətdən potensial layihələrin reallaşdırılması üçün optimal yanaşmanı və digər məsələləri nəzərdə tutur.

Azərbaycan Respublikasının Energetika Nazirliyi və "TotalEnergies" şirkəti arasında "250 MVt gücündə quruda külək, Naxçıvan Muxtar Respublikasında 250 MVt gücündə Günəş Elektrik stansiyaları, habelə enerji saxlanc sistemləri layihələrinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu", Azərbaycan Respublikasının Energetika Nazirliyi və Nobel Energy Management MMC arasında "Naxçıvan Muxtar Respublikasında 400 MVt gücündə Günəş Elektrik Stansiyasının tikintisi və istehsal ediləcək elektrik enerjisinin Türkiyə Respublikasına ixracı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" sosial-iqtisadi inkişaf strategiyasını müəyyənləşdirməklə yanaşı, həm də qarşıya mühüm vəzifələr qoyur. İyunun 7-də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı müşavirə keçirilib.

Müşavirədə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, yeni Dövlət Proqramı olduqca əhatəli və geniş spektrə malikdir. Vurğulanıb ki, Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətində Naxçıvan amili xüsusi qeyd olunmalıdır. Muxtar respublikanın 50 illik dövrü məhz Onun siyasəti ilə formalaşıb. Xüsusilə Ümummilli Liderin 1990-1993-cü illərdə Naxçıvanda olması nəinki Naxçıvan Muxtar Respublikasını, eləcə də Azərbaycan Respublikasını böyük bir təhlükədən xilas edib. Qeyd olunub ki, Azərbaycan Respublikası öz ordusunun gücünə arxalanaraq, heç bir kənar qüvvənin dəstəyi olmadan 30 ildən artıq davam etmiş reallığı dəyişdirib və yeni reallıq yaradıb: ***"Bu gün Qafqazda Azərbaycan dövləti söz sahibidir və mövqeyi əsas rol oynayır. Bunun da əsasında Ümummilli Liderin uzaqgörən siyasətinin bəhrələri dayanır. Bu siyasətin uğurlu davamçısı kimi ölkə Prezidenti cənab İlham Əliyevin rolu əvəzolunmazdır. Həqiqətən, biz xoşbəxt xalqıq. Ona görə ki, məhz iki böyük şəxsiyyətin idarəetməsində Azərbaycan Respublikası daha güclü sosial-iqtisadi potensialı olan gələcəyə gedir. 2023-2027-ci illəri əhatə edən Dövlət Proqramının təsdiq olunması xüsusilə əlamətdardır. Proqramda 11 sahənin prioritet olaraq seçilməsi heç də təsadüfi deyil. Bu prioritet istiqamətlər məhz ölkə Prezidenti cənab İlham Əliyevin göstərişi sayəsində formalaşıb".***

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında yerli səviyyədə qəbul olunmuş Dövlət proqramları tətbiq olunurdu. Lakin istənilən nəticə yoxdur. Muxtar respublikada əldə olunmuş inkişaf isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səyi nəticəsində mümkün olub. Hər il Azərbaycan Respublikasının büdcəsindən 100 milyonlarla manat vəsait dotasiya şəklində Naxçıvan Muxtar Respublikasına ayrılıb. Təəssüf ki, bu dəstəyin qarşısında olduqca nöqsanlı iş aparılıb. Lakin ümumi xəttimiz, cənab Prezidentin formalaşdırdığı tapşırıqlar hər kəsə aydındır. Artıq muxtar respublikada struktur dəyişiklikləri aparılır. Bu dəyişikliklərin hədəfləri açıq-aydın görünür.

Səlahiyyətli nümayəndə Dövlət Proqramındakı 11 prioritet məsələ haqqında ətraflı danışıb, qarşıya qoyulan vəzifələrin icrasında aid dövlət qurumlarının üzərinə düşən vəzifələri diqqətə çatdırıb, Dövlət Proqramının qəbul olunmasına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıq edib.

Müşavirədə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın qəbulu ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının qüvvədə olan Dövlət proqramlarının ləğv edilməsi ilə bağlı, Naxçıvan Muxtar Respublikasının normativ-hüquqi aktlarının hüquqi ekspertizasının aparılması üzrə Komissiyanın yaradılması barədə məlumat verilib. Çıxışlar zamanı ölkə Prezidenti tərəfindən müvafiq Dövlət Proqramının qəbul edilməsinin Naxçıvan ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb, dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Elin tükənməz sərvəti olan taxıl hər il böyük zəhmətlə ərsəyə gətirilərək ruh yüksəkliyi ilə toplanılır. İyunun 9-da muxtar respublika üzrə mövsümün ilk taxıl biçininə Ordubad rayonunun Dəstə kəndindən başlanılıb. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Dəstə kəndində fermer təsərrüfatında olub, əkin sahəsində taxıl biçininə başlanması mərasimində iştirak edib.

Məlumat verilib ki, taxıl biçininin idarə olunması üçün Kənd Təsərrüfatı Nazirliyində Mərkəzi Qərargah yaradılıb. Biçinin vaxtında və keyfiyyətlə aparılması məqsədilə zəruri tədbirlər görülür. Ümumilikdə, bu il muxtar respublikada 21 min 247 hektar sahədə taxıl əkilib. Onun 485 hektarını yaz əkinləri təşkil edir. Ordubad rayonu ərazisində isə 856 hektar sahədə taxıl əkini aparılıb ki, bunun da 85 hektarı buğda, 771 hektarı arpa əkinləridir. Rayonda əkilən taxıl sahəsinin, təqribən, 50 faizi Dəstə ərazisindədir. Səlahiyyətli nümayəndə aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələrini çatdırıb. Sonra fermer Zamin Hüseynovun əkin sahəsində taxıl biçininə başlanılıb.

Əhalinin özünüməşğulluğunun təmin edilməsində, yeni iş yerlərinin müəyyənləşdirilməsində, əmək bazarının iqtisadi təhlilində əmək yarmarkaları da müstəsna rol oynayır. İyunun 22-də Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə Naxçıvan Biznes Mərkəzində əmək yarmarkası keçirilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və digər rəsmi şəxslər də yarmarkanın açılışında iştirak edib.

Səlahiyyətli nümayəndə yarmarkanın açılışı münasibətilə iştirakçıları təbrik edib, bu qədər yüksək miqdarda iş yeri təklifinin əhalinin məşğulluq problemlərinin həllində əhəmiyyətli rol oynadığını bildirib. Fuad Nəcəfli Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair (2023-2027-ci illər) Dövlət Proqramı çərçivəsində Naxçıvanda minlərlə iş yerinin yaradılmasının hədəfləndiyini də diqqətə çatdırıb. Bildirib ki, muxtar respublikada aparılan sosial-iqtisadi islahatlar nəticəsində əlverişli biznes mühiti formalaşır. Azad iqtisadi zonaya çevrilən muxtar respublikaya investorlar böyük maraq göstərirlər. Naxçıvanda əmək yarmarkalarının ayda bir dəfə keçiriləcəyini diqqətə çatdıran Fuad Nəcəfli qeyd edib ki, belə tədbirlər əhalinin məşğulluq imkanlarını daha da artıracaq. Muxtar respublikada işaxtaran şəxslərin məşğulluqlarının təmin edilməsi, o cümlədən əmək bazarında rəqabətədavamlılığın artırılması, kadr potensialının yüksəldilməsi diqqət mərkəzində saxlanılacaq.

Sonra səlahiyyətli nümayəndə təqdim olunan iş yerləri ilə tanış olub. Məlumat verilib ki, əmək yarmarkasında, ümumilikdə, 110 müəssisədən 640 və haqqıödənilən ictimai işlər üzrə 347 vakansiya işaxtaran və işsiz vətəndaşlara təklif olunub. Özəl müəssisələrin təqdim etdiyi vakansiyalara maraq daha böyük olub.

### *Milli Qurtuluş Günü muxtar respublikada bayram əhvali-ruhiyyəsi ilə qeyd olunub*

İyunun 14-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Dövlət Filarmoniyasının Birləşmiş Orkestri 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı ilə çıxış edib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev, dövlət və hökumət nümayəndələri konsertdə iştirak edib.

Konsertdən əvvəl Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətləri barədə məruzə edib.

Qeyd olunub ki, Milli Qurtuluşumuzun 30 ili tamam olur. Son 30 ildə Ümummilli Lider tərəfindən qarşıya qoyulan vəzifələr uğurla yerinə yetirilir, Azərbaycan daha da inkişaf edir. Ulu Öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət bu gün Onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının rəhbərliyi ilə ərazi bütövlüyümüzün təmin olunması Ulu Öndər Heydər Əliyev strategiyasının uğurlu nəticəsidir.

Sonra Naxçıvan Dövlət Filarmoniyasının Birləşmiş Orkestrinin konserti olub.

Ölkəmizdə Ulu Öndər Heydər Əliyevin dini həmrəylik ideyaları və dövlət-din siyasəti uğurla davam etdirilir. "Heydər Əliyev İli"ndə, 15 İyun – Milli Qurtuluş Günündə, Ramazan bayramı ərəfəsində Naxçıvanda ölkəmizin ən böyük məscid binasının istifadəyə verilməsi muxtar respublika həyatında çox əlamətdar və tarixi gün kimi rəğbət və sevinclə qarşılanıb. Açılış tədbirində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, digər rəsmi şəxslər və dindarlar iştirak ediblər. Tədbirdə "Qurani-Kərim"dən ayələr oxunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək bildirib ki, Ulu Öndərimiz hər zaman islami dəyərlərə hörmət və ehtiramla yanaşıb. Sovet imperiyasının buxovlarına baxmayaraq, Ümummilli Lider Heydər Əliyev məscidləri, dini ziyarətgahlarımızı qoruyub, ziyarət edib, dini-mənəvi dəyərlərimizi yaşadıb və sonrakı dövrlərdə inkişafına xüsusi diqqət göstərib. Vurğulanıb ki, tolerant ənənələrə sadiqlik xalqımızın qoruyub yaşatdığı ən gözəl dəyərlərdəndir. Dünyada islamafobiyanın, dini ayrı-seçkiliyin dərinləşdiyi dövrümüzdə ölkəmizin hər yerində müxtəlif dinlərin nümayəndələri qardaşlıq prinsipləri şəraitində rahat yaşayır. Xalqımız hər addımında dünyaya əsl mədəni sivilizasiya və tolerantlıq nümunəsi təqdim edir.

Fuad Nəcəfli yeni məscid kompleksini ölkə Prezidenti cənab İlham Əliyevin xalqımızın dini-mənəvi dəyərlərinə verdiyi qiymətin daha bir ifadəsi kimi dəyərləndirib, açılış münasibətilə dindarları təbrik edib. Səlahiyyətli nümayəndə məscidə müqəddəs kitabımız "Qurani-Kərim" hədiyyə edib. Səlahiyyətli nümayəndə dindarlarla söhbət edib, dini-mənəvi dəyərlərin düzgün təbliği ilə bağlı fikir mübadiləsi aparılıb. Sonra məscid kompleksinə baxış olub. Həmin gün məsciddə ilk namazlar qılınıb, ehsan süfrələri açılıb, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin ruhuna dualar oxunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqəti və tapşırığı ilə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən Qurban bayramı ərəfəsində Naxçıvanda yaşayan sosial qayğıya ehtiyacı olan 1250 ailə üçün ərzaq bağlamalarından ibarət yardım təşkil olunub. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyevin iştirakı ilə Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında yaşayan aztəminatlı, o cümlədən şəhid və qazi ailələri üçün gətirilmiş bayram sovqatları 6 avtomobillə ünvanlara yola salınıb.

*Xalq Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində müstəsna rol oynayan Ulu Öndər Heydər Əliyevi Milli Qurtuluş fəlsəfəsinin müəllifi kimi daim böyük ehtiramla anır. Çünki Prezident cənab İlham Əliyevin də vurğuladığı kimi,* ***"Qurtuluş Günü Azərbaycan tarixində dönüş nöqtəsi idi".*** *Ötən ayın ictimai-siyasi xronikasından da göründüyü kimi, Azərbaycanın dilbər guşəsi, qədim Naxçıvan bu tarixin real bəhrələrini yaşamaqdadır.*

**Mehriban SULTAN**

***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Naxçıvan Baş Gömrük İdarəsi tərəfindən toplanılmış gömrük ödənişləri ötən ilin eyni dövrü ilə müqayisədə artıb

2023-cü ilin yanvar-iyun ayları ərzində Naxçıvan Baş Gömrük İdarəsi tərəfindən 41 milyon 650 min manat məbləğində gömrük ödənişləri toplanılıb.

Toplanılmış gömrük ödənişləri ötən ilin eyni dövrü ilə müqayisədə 23 milyon 632 min manat və ya 131 faiz artıq olub. 2023-cü ildə müəyyən olunmuş 53 milyon 278 min manat proqnoza qarşı cari ilin birinci yarısı ərzində 36 milyon 22 min manat vəsaitin toplanaraq təyinatı üzrə köçürülməsi təmin olunub. Bu ilin yanvar-iyun ayları ərzində toplanılmış vəsaitin 5 milyon 628 min manatı Naxçıvan Muxtar Respublikasının büdcəsinə köçürülüb.

Konsinqasiya yolu ilə ixrac olunan mallardan yaranmış borcun geri qaytarılması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində cari ilin 6 ayı ərzində, ümumilikdə, 8 milyon 976 min ABŞ dolları məbləğində borcun 100 faizinin hüquqi və fiziki şəxslərin müvəkkil bankdakı hesablarına köçürülməsi təmin edilib.

***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi***

# Fədakarlığı ilə əbədiyyət vüsalına qovuşan qəhrəman Vüsal



*Cəmi 18 gün yaşasaydı ömrünün 42-ci baharından boylanacaqdı həyata. Şərəflə daşıdığı formanın məsuliyyəti, vicdanının səsi izin vermədi buna. Ömrü boyu sudan qorxduğu qədər heç nədən qorxmayan Vüsalın taleyinə suda can vermək nəsib oldu. O, əslində, can vermədi, can oldu, hər zərrəsi nəfəs oldu. Öz dünyasından köçüb on milyonluq xalqın bağrında əbədiyyətə qovuşdu, onu sevənlərə vüsal oldu, hicran oldu, qürur mənbəyi oldu!*

“Suda boğulan uşağı sahilə çıxarıb anasını xilas edərkən qəhrəmancasına canından keçən polis bu gün Cəhri kənd qəbiristanlığında torpağa tapşırılacaq” adlı xəbər başlığını oxuyarkən bir anlıq diksinib ayıldım xəbərin təsirindən. Bu an telefon zəng çaldı və baş redaktor bu qəhrəmanlığın qəzetdə əbədiləşdirilməsi məsuliyyətini mənə tapşırdı. Hadisənin qüruru ilə yanaşı, ürək yanğısını ailəsindən dinləmək üçün yola rəvan oldum... Elə həmin gün Prezident cənab İlham Əliyev öz həyatı təhlükə altında olduğu halda insan həyatını xilas edərək qəhrəmancasına həlak olan polis baş leytenantı Vüsal Əbülfəz oğlu Quliyevi “İgidliyə görə” medalı ilə təltif etdi. Bir daha qürur hissi keçirdik ki, ictimai fəallıq, fədakarlıq göstərən insanlar dövlətimiz tərəfindən operativ qiymətləndirilir. Çünki Azərbaycan polisi buna layiqdir. O hər an, hər saniyə təhlükə ilə nəfəs-nəfəsədir. Səngərdə də, yol qəzasında da, təbii fəlakətdə də, gözlənilməz faciədə də... Azərbaycan polisi peşə şərəfini qorumağa, Vətən borcundan çıxmağa, amalını, məramını, vicdanını həyatından da uca tutmağa qadirdir...

Yas mərasimində insanlar izdihamla mərasim evinə axışırdı. Polis əməkdaşları onun qəhrəmanlığından, fədakarlığından, şücaətindən doya-doya danışır, eşidənlər doymayaraq dinləyir, əllər dua olub səmaya ucalır, dillər zikr olub Allaha onun üçün dualar edirdi.

Yarım qalmış həyatını öz övladın bilib xilas etdiyin o yeniyetməyəmi pay verdin? Vətənə tapşırıb nisgilli doğmalarını, hayqırışlarını yanağından ürəyinə axıdan Yaqubuna, teli sən qoxan Ziyana bir ömürlük ad qoyub getdin! Sən fədakarlıq edərək başqa cana nəfəs oldun. Bu nəfəsi bütünlüklə uğrunda canını fəda etdiyin xalqının övladına verdiyin üçün dövlətin və xalqın da bütün sevdiklərini öz ağuşuna alıb onları əmanət kimi bağrına basacaq. Rahat uyu, Vüsal!

Axşam təxmini 21$^{00}$-da Cəhri kəndindəki yaşıl qapılı evin həndəvərindəyəm. Bu qapının eşiyində xoşbəxtlik, içərisində iztirablar sanki dilə gəlib səni çağırır, Vüsal! Qapını astaca açıb içəri daxil oluram. Gördüyüm tablo yarımdı, hər kəs oturub, düşünür, hüznlənir, sənsə xatirələrdən asılmış qürur tablosu kimi zehinlərdə, yaddaşlarda daşlaşırsan.Və budur mən sizdəyəm, sənin yoxluğunda sənin sənsizliyindən söhbət açırıq.

### *Kişilər ağlamaz, atam balası*

Yaşı 65-i haqlamış Əbülfəz əmi də fədakar, zarafatcıl, zəhmətkeş, ailəcanlı, qayğıkeş, bütün insani keyfiyyətləri özündə ehtiva edən övladı üçün ürəyi sızlasa da, özünü qürurlu tutur. Çünki övladı şərəfli bir ömür yolu keçdi, xidmət başında yox, istirahət vaxtında olsa belə son nəfəsini öz peşəsinə qurban verdi. İndi ümidsizcə addım-addım onu bu evdə axtaran ailəyə bir şərəfli ömürdən qalan xatirələr təsəllidir.

Əbülfəz əmi deyir: – Uşaqlıqdan həvəsli idi polis olmağa. Hərbi xidməti bitirər-bitirməz təyinat alıb Babək şöbəsində, Dəmir yolu polis bölməsində, Gecə Polisində, Daxili İşlər Nazirliyində, Polis məktəbində və Naxçıvan Polis İdarəsində müxtəlif vəzifələrdə xidmət edən Vüsal dürüstlüyü, cəsarəti, vətənpərvərliyi, insansevərliyi, sədaqətliliyi və ən əsası da polis adını ləyaqət və vicdanla daşıdığı üçün Azərbaycan polisinin qürur mənbəyinə çevrildi...

### *Ölsəm, bağışla!*

Yarım qalan sevgi, yarım qalan həyat... “Ölüm məni çağırdı, yaşam məndən üz döndərdi, fəqət qanadları yanan pərvanə kimi yaralı barmaqlarıma qonub mənə: “Hələ tələsmə, Lalə, mən həmişə səninləyəm”, – deyən gənc bir xanımın səksəndirib oyadır bizi xəyallardan. Bu xanım Lalədir. Vüsalın ömür-gün yoldaşı.

Ulduzları 2005-ci ildə barışmışdı Vüsalla Lalənin. Təzəcə Cəhri kənd musiqi məktəbinə təyinat alan Laləni görüb bəyənən Vüsal elə oradaca saqqızını oğurlamışdı bu qızın. Bu izdivacdan iki oğlan övladı qazanan bu ailə xoş, firavan, qayğılı həyat sürürdü. Lalə deyir: – Vüsal çox ailəcanlı idi, övladları ilə nəfəs alır, onların qayğıları ilə maraqlanır, dərsləri ilə müntəzəm məşğul olur, onlarla ata yox, dost kimi həmdəm olurdu. Laləyə həmişə nəvaziş və diqqət göstərən Vüsal onu gözündən bir an da uzağa qoymurdu.

Lalə deyir ki, Vüsal çox ürəyiyumşaq idi, yanımlı idi, cibindəki son qəpiyini belə xəstə, kimsəsiz və çarəsiz adamlarla paylaşırdı. Lalə ailə qayğılarında Vüsala o qədər arxayın olub ki, indi bu məsuliyyətin altından necə qalxacağını düşünə bilmir. Lalə deyir, bir dəfə Bakıda dənizə getmişdik və balaca oğlumla qumda gəzinti edərək sahildən çox uzaqlaşdıq və bir də gördük ki, Vüsal Sahil Mühafizə Xidmətinə övladımla mənim anonsumu verir. Vüsal bizə qarşı çox həssas və diqqətli idi, amma heç düşünməzdim ki, bir gün gözlərimin önündəcə Vüsalın qorxduğu su onu bizdən alacaq.

Hadisəni göz yaşı və qürurla xatırlayan Lalə deyir ki, göl qırağında, sən demə, sonuncu dəfə samovar salırmış ki, ağız dadıyla bir çay içək. Ani diqqətsizliklə azğın sulara qərq olan 13 yaşlı oğlanı görən Vüsal vicdanının səsinə qulaq asaraq gecənin zil qaranlığında özünü dərin sulara ataraq yeniyetməni xilas etdi, ardınca onun anasını xilas etmək istərkən öz həyatından da oldu.

### *Atam mənim qəhrəmanım idi, indi isə o həm də xalqın qəhrəmanı oldu*

Stulun küncünə qısılan 13 yaşlı Yaqub və anasının ağuşunda həyatın cilvələrini, ələmlərini, kədərlərini dadmayan Ziyanı Vüsalın bizə əmanət qoyub getdiyini də unutmayaraq söhbətimizi fədakar qəhrəmanın balaca oğlu ilə davam edirik. 8 yaşlı Ziya bizə bildirir ki, gələcəkdə kompüter mühəndisi olmaq istəyir. Zamanı qabaqlayan bu uzaqgörən uşaq artıq gələcəyin ixtisasını özünə hədəf seçib, qarşısına məqsəd qoyaraq, bu yolda uğur qazanacağını əminliklə vurğulayaraq atası kimi hörmətli olacağını qeyd edir.



Vüsalın bütün xüsusiyyətlərini özündə ehtiva etdirən 13 yaşlı oğlu Yaqub atasından, onun qəhrəmanlığından, vətənpərvərliyindən, göstərdiyi şücaətdən ağızdolusu danışır. “O mənim qəhrəmanım idi, indi isə xalqın qəhrəmanı oldu”, – deyən Yaqub atasını çox həssaslıqla xatırlayır, özü-sözü atası olduğunu ürək açıqlığı ilə qeyd edir. Hər gün atası ilə, bəlkə, 20 dəfə telefonla danışan Yaqub atası ilə nəfəs alır, onun yoxluğunda onun qeyrətinə, fədakarlığına, cəsarətinə, əzminə sığınır, bu məziyyətlərdən bir qəhrəman düzəldərək onu həyatının baş roluna çevirir.

Yaqub deyir, İkinci Qarabağ savaşı başlayanda atası onlara aşılayırmış ki, ata bir gün gedəcək çox uzaqlara, gözlə görülməyəcək, əllə tutulmayacaq hüdudlara, amma darıxmayın, gələcək... və siz atayla fəxr edəcəksiniz.

Söhbətimiz zamanı Yaqub bildirir ki, atasının şərəflə keçdiyi yolu davam etdirmək, üzərində daşıdığı polis formasını ləyaqətlə Vüsalın davamçısı kimi daşımaq istəyir. Gələcəkdə o da atası kimi, qəhrəman polis olmaq istəyir, oğlu onun adını əbədiləşdirəcəyi sözünü verir bizə.

### *İllərin dostluğu danışır*

İndi buza dönmüş, lallaşmış, məhrəm xatirələri dilə gətirən dostu Taleh deyir ki, uşaqlıqdan qorxurdu sudan Vüsal. O, Vətənə, torpağa çox sədaqətli idi. Xidmət zamanı səhvlik edən vətəndaşlara belə sərt davranmır, onlarla həlim, mülayim dildə danışır, onları dinləyir və islah olunmaları üçün səy göstərirdi. Polis adına, polis formasına heç zaman ləkə gətirmədi, həmişə polis adını qorudu, uca tutdu. İşini heç zaman yarım buraxmadı.Vüsal yaşca balaca olsa da, Taleh onun sözlərini daim öyüd-nəsihət kimi qəbul edirdi. Dostların bir-birindən ayrı günü keçməzmiş. Hər gün zəngləşər, bir-birinin əhvalını soruşar, görüşüb samovar çayı içəcəkləri yeri vədələşərmişlər.

Vüsal dostu və ailəsini başına yığaraq hər gün samovar qaynadar və bundan hədsiz zövq alarmış. Kəndinə, evinə çox bağlı, çox sədaqətli idi. Xeyirdən-şərdən qalmaz, həmişə öndə iştirak edər və deyərdi: “Əbilim yoxdur, mən onu əvəz edirəm”. Atası Əbülfəz əmiyə Əbilim deyə xitab edər, o Bakıya köçəndən sonra çağırılan bütün məclislərdə onu təmsil edərmiş.

Dostların son görüşü də elə həmin gün olub. Vüsal Talehə ailəsi ilə göl qırağında samovar çayı içəcəyini deyib, axşam saat 20$^{00}$-dan sonra ona zəng edəcəyini bildirib. Taleh çox gözləsə də, Vüsal ona bir də heç zaman zəng etməyib və gələn başqa bir zəng Vüsalın qəhrəmancasına həlak olduğunu bildirib.

### *Bizim fəxr yerimiz...*

Qarşı-qarşıya oturduğum düzqamətli, ucaboylu, gözü uzaqlarda yol çəkən Vüsalın qardaşı Vüqar deyir: – Onun yoxluğu ilə heç cür barışa bilmirəm. Təsəllimiz odur ki, indi o bizim fəxr yerimiz, qürur mənbəyimizdir. Vüsal qardaş yox, dost idi, həmdəm idi. Vüqarın yaddaşında həmişə pozitiv qalan qardaşı təbiət vurğunu, ailəcanlı, evinə, kəndinə bağlı bir insan idi. O mənə həmişə yaşamağın gözəl olduğunu deyirdi. Nə qədər ağır olsa da, Vüqar fəxr hissi ilə qürur duyur qardaşı Vüsalla. Dövlətin qayğısını çiyinlərində hiss edən Vüsal ölkə başçısına, Daxili İşlər Nazirliyinə və aidiyyəti qurumlara minnətdar olduğunu bildirir.

Qarşısındakı şəkillərə baxaraq yanağından süzülən göz yaşları qəlbini təsəlli edirdi, Vüsalın bacısı Röyanın... Röya deyir ki, hər zaman təbəssümlə xatırlanan fədakar, mərdürəkli qardaşımı xalqımız qəhrəman oğul kimi tanıyacaq. Bu bizim üçün ən böyük təsəllidir. Çətin zamanlarında belə üzündəki təbəssümü qoruyan Vüsalın əziz xatirəsi illər keçsə də, bacısı Röyanın qəlbindən silinməyəcək.

*Bu səmimi ailə tablosunda zamanın necə keçdiyini heç hiss etmədən birdən gecəyarı olduğunun fərqinə varıram. Səmimi münasibət, isti məhəbbət, doğma ülviyyət və başucalığı ilə tərk edirəm Əbülfəz əminin min bir əziyyətlə böyüdüb boya-başa çatdırdığı Vüsalın ata evini... Qapıda ailə üzvləri ilə saqollaşaraq qaranlıq küçələrdə yola davam edirəm. Bir vaxt Vüsalı bağçadan, məktəbdən, hərbi xidmətdən, işdən gələrkən salamlayan bu küçələr, bu yollar indi onun üçün gedişi olub, dönüşü olmayan yollara çevrilib. Doğmalarının gözləri isə elə bu yollara boylanaraq nə vaxtsa gələcəkmiş kimi Vüsalı gözləyir. Cismi bu dünyadan köç etsə də, eşqi onu sevənlərin qəlbində kök salacaq,Vüsal xatirələrdə əbədi yaşayacaq!!!*

**✍ Fariz ƏHMƏDOV**

## Naxçıvanda 44 məzun qızıl və gümüş nişana layiq görülüb





Bu il Azərbaycanda orta məktəbi bitirən 126 şagird qızıl, 95-i isə gümüş medalla təltif olunub. Muxtar respublika üzrə 2022-2023-cü tədris ilində ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuraraq qızıl və gümüş nişanlara layiq görülən məzunların da sayı açıqlanıb.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyindən verilən məlumata görə, ötən tədris ilində muxtar respublikada XI sinfi bitirən 20 məzun qızıl, 24 məzun isə gümüş nişanla təltif olunub.

Qeyd edək ki, qızıl və gümüş nişanla təltif olunmuş təhsilalanların adları oxuduqları məktəbin “Şərəf kitabı”na yazılacaq.

**Xəbərlər şöbəsi**

## Elbrusdan növbəti qələbə



Rumıniyanın Ployeşti şəhərində keçirilən yeniyetmələrin Avropa çempionatında mübarizə davam edir. 32 ölkədən 378 (260 oğlan, 118 qız) boksçunun qatıldığı qitə birinciliyinin dördüncü günündə növbəti görüşlər keçirilib.

Milli komandımızın heyətində çıxış edən Naxçıvan boksçusu Elbrus Kərimli 54 kiloqram çəki dərəcəsinin 1/8 final qarşılaşmaları çərçivəsində şotlandiyalı Yakub Naismiti məğlub edərək növbəti mərhələyə adlayıb. Təmsilçimiz daha bir qələbə qazandığı təqdirdə minimum bürünc medalı özü üçün təmin edəcək.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Şərur rayonunun Kosacan kənd sakini Cabbarova Seyran Qasım qızının adına olan JN-149$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunun Çalxanqala kənd sakini Bayramov Mübariz Camal oğlunun adına olan JN-103$^{A}$ inventar nömrəli, 10300018 kodlu, JN-103$^{C}$ inventar nömrəli, 10300018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Zeyvə kənd sakini Sərxanbəyov Ramil Sultan oğlunun adına olan JN-1632 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

**

Şahbuz şəhər sakini Rəhimova Simuzər Qəhrəman qızının adına verilmiş 97 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 440